Azərbaycan Respublikası
iqtisadiyyat nazirinin
“22” aprel 2016-cı il tarixli
F-38 nömrəli əmri ilə təsdiq
edilmişdir.

İnvestisiya təşviqi sənədinin alınması üçün hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən investisiya layihəsinin (biznes planın) tərtib edilməsinə dair

# M E T O D İ K İ   T Ö V S İ Y Ə L Ə R

## 1. Ümumi müddəalar

Bu sənəd "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 18.01.16. tarixli 745 nömrəli Fərmanı ilə təsdiq olunmuş "İnvestisiya təşviq sənədinin verilməsi Qaydası"na uyğun olaraq hazırlanmışdır və investisiya təşviqi sənədinin alınması üçün hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən investisiya layihəsinin (biznes planın) tərtib edilməsinə dair metodiki tövsiyələri müəyyən edir.

## I B Ö L M Ə

### Titul vərəqi

İnvestisiya layihəsinin tərtib edilməsi titul vərəqindən başlayır. Titul vərəqi üzrə verilən məlumatlar investisiya layihəsinin birinci bölməsində əks olunur və əsasən sahibkarlıq subyekti və onun təqdim etdiyi investisiya layihəsi ilə bağlı ilkin tanışlığı əks etdirir.
Titul vərəqində aşağıdakı məlumatlar əks olunmalıdır:

1. Sahibkarlıq subyekti;
   - Adı
   - Hüquqi ünvanı
   - Fəaliyyət ünvanı (layihənin həyata keçirildiyi yer, inzibati ərazi vahidi göstərilməklə)
2. Payçı və səhmdar (payçılar və səhmdarlar);
   - Adı (adları)
   - Ünvanı (ünvanları)
3. Rəhbər (rəhbərlər);
   - Adı (adları)
   - Vəzifəsi (vəzifələri)
   - Ünvanı (ünvanları)
4. Təşkilati-hüquqi forması;
5. Mülkiyyət forması;
6. Sahibkarlıq subyektinin dövlət orqanında qeydiyyatı;
7. Bank rekvizitləri.

## II B Ö L M Ə

### İnvestisiya layihəsinin xülasəsi

İnvestisiya layihəsinin xülasəsi layihənin başlıca məqsədini və məzmununu ifadə etməklə özündə sahibkarlıq subyektinə dair müvafiq məlumatları və bu investisiya layihəsi üzrə istehsal olunacaq məhsullar, göstəriləcək xidmətlər və görüləcək işlər barədə məlumatları və s. əks etdirir. Xülasədə investisiya layihəsinin müvafiq müddəaları ardıcıllıqla qısa, dəqiq və səlis yazılmalıdır:

1. İnvestisiya layihəsinə dair məlumatlar;
   - investisiya layihəsinin mahiyyəti;

- investisiya layihəsinin ümumi dəyəri (bina, torpaq, qurğu, avadanlıq və s.-nin dəyəri ayrı-ayrı göstərilməklə);
- investisiya layihəsinin icra müddəti.

2. İnvestisiya layihəsi üzrə alınması nəzərdə tutulan əsas və dövriyyə vəsaitlərinə (investisiya layihəsi çərçivəsində nəzərdə tutulan bina, torpaq, mal-material, texnikanın, texnoloji avadanlıqların və qurğuların siyahısı, spesifikasiyası və nəzərdə tutulan ilkin qiyməti) dair müfəssəl məlumatlar;
3. İnvestisiya layihəsi üzrə nəzərdə tutulan təmir-tikinti və quraşdırma işlərinə dair müfəssəl məlumatlar;
4. İnvestisiya layihəsinin aid olduğu iqtisadi fəaliyyət sahəsi və istehsalı nəzərdə tutulan məhsullar haqqında məlumatlar;
5. Yeni iş yerlərinin yaradılması barədə məlumatlar.

## III B Ö L M Ə

### Sahibkarlıq subyekti haqqında məlumat

İnvestisiya layihəsinin bu bölməsində sahibkarlıq subyektinin biznesinin təşkili və potensial üstünlükləri, investisiya layihəsinin reallaşdırılması ilə bağlı mövcud imkanlarının səviyyəsi və s. bu kimi məlumatların şərh edilməsi zəruridir. Sahibkarlıq subyektinə dair məlumatlar aşağıdakı ardıcıllıqla əks etdirilməlidir:

1. Sahibkarlıq subyektinin fəaliyyəti və biznes tarixi;
2. Mövcud istehsal infrastrukturu və maddi-texniki təchizatı;
3. İşçi heyəti.

## IV B Ö L M Ə

### Təşkilati plan (icra qrafiki)

İnvestisiya layihəsinin təşkilati planı ilk növbədə layihə üzrə görüləcək işlərin yerinə yetirilmə və yoxlanılma ardıcıllığını, reallaşdırılma mərhələlərini və digər mühüm təşkilati prosesləri özündə əks etdirməlidir. Təşkilati planın hazırlanması aşağıdakı ardıcıllıqla aparılmalıdır:

1. İnvestisiya layihəsi üzrə nəzərdə tutulan əsas işlərin mərhələləri;
2. Görüləcək işlərin yerinə yetirilməsi qrafiki (bu hissədə illər üzrə qoyulacaq vəsait göstərilməlidir).
3. İcra qrafiki üzrə görülmüş işlər.

## V B Ö L M Ə

### İstehsal planı

İnvestisiya layihəsində istehsal planının hazırlanması məhsul (iş və xidmət) növü üzrə istehsalın təşkili prosesini, maddi-texniki təchizatını, istehsal prosesinin idarə olunmasını və istehsalla bağlı digər müvafiq məlumatları özündə əks etdirir.

İstehsal planında aşağıdakı məlumatlar verilməlidir:

1. Sahibkarlıq subyektinin mövcud istehsal imkanları;
2. İnvestisiya layihəsi üzrə istehsal gücü və nəzərdə tutulan istehsal həcmi;
3. Alınması nəzərdə tutulan xammal və materialların xarakteristikası və sərfiyyat normaları;
4. Əməyin təşkili, istehsalın təhlükəsizliyi və ekoloji məsələlər.

## VI B Ö L M Ə

### Maliyyə Planı

İnvestisiya layihəsinin maliyyə planı layihə üzrə pul vəsaitlərinin hərəkətini əks etdirməklə digər bölmələrdə verilən məlumatların ümumiləşdirilərək və onların dəyər (pul) ifadəsində təsvir edilməsinə xidmət edir. Bu bölmə sahibkarlıq subyektinin sərəncamında olan əsas və dövriyyə vəsaitlərinin əks etdirilməsi, kredit və öz vəsaitinin hərəkəti və layihə dövrü ərzində pul vəsaitlərinin dövriyyəsi ilə şərtlənir.

Maliyyə planı bölməsində aşağıdakı məlumatlar verilməlidir:

1. Daxil olan pul vəsaitlərinin mənbələri;
2. Xərclənən pul vəsaitlərinin istiqamətləri;
3. Mənfəət və zərərlər cədvəli;
4. Pul vəsaitinin hərəkəti cədvəli.
5. Layihənin maliyyələşmə mənbəyi.